# İtaliya və Azərbaycan arasında siyasi, iqtisadi, mədəni əməkdaşlıq sürətlə genişlənir

**Azərbaycan və İtaliya yaxın dost və strateji tərəfdaşlardır. İtaliya Qarabağın enerji infrastrukturunun yaradılması ilə bağlı Azərbaycanla müqavilə imzalamaqla bu faktı bir daha təsdiqlədi. Təsadüfi deyil ki, bu gün İtaliya Azərbaycanın Avropadakı ən böyük ticarət tərəfdaşıdır. Prezident İlham Əliyev çıxışlarında Azərbaycanın İtaliya, İtaliyanın Azərbaycan üçün çox etibarlı tərəfdaş olduğunu vurğulamışdır. Dövlət başçısının ötən il İtaliyaya rəsmi səfəri zamanı imzalanmış iyirmiyə yaxın sənədlər paketi iki ölkə arasında münasibətlərin daha da inkişaf etməsinə zəmin yaradır. İkinci Qarabağ müharibəsində İtaliyanın nümayiş etdirdiyi ədalətli mövqe də ölkələrimiz arasında strateji əlaqələrin sağlam təməllər üzərində bundan sonra da inkişaf edəcəyindən xəbər verir.**



Azərbaycan ilə İtaliya arasında münasibətlərin qədim tarixi kökləri var. Belə ki, İtaliya Azərbaycanın Avropada ən qədim dövrlərdən diplomatik əlaqələr saxladığı ölkələrdən biridir. Hələ orta əsrlərdə Səfəvilər sarayında Venesiya və Genuya respublikalarının daimi elçilərinin fəaliyyət göstərmələri barədə tarixi faktlar məlumdur. Lakin 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında münasibətlərdə yeni səhifə ümummilli lider Heydər Əliyevin İtaliyaya gerçəkləşdirdiyi səfərdən sonra açılmışdı. Məhz həmin səfərdən sonra Azərbaycan – İtaliya münasibətlərinin hüquqi müqavilə bazası genişlənmiş və müxtəlif sahələrdə əməkdaşlıq inkişaf etməyə başlamışdı. Ulu öndər Heydər Əliyevin İtaliyaya səfəri nəticəsində ölkələr arasında siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalanmışdı. Sonrakı dövrlərdə Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan–İtaliya münasibətləri tamamilə yeni səviyyəyə yüksəldi. Bunun nəticəsidir ki, bu gün Azərbaycan və İtaliya arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır.

Xatırladaq ki, ötən il fevralın 20–22-də Prezident İlham Əliyev İtaliyaya tarixi dövlət səfəri çərçivəsində siyasi-institusional və sənaye xarakterli çoxsaylı ikitərəfli müqavilələrin rəsmi imzalanması və mübadiləsi mərasimində iştirak etmişdi. İmzalanmış sənədlər arasında xüsusi yer tutan "Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında" Birgə Bəyannamədə Azərbaycanın və İtaliyanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri qəbul edilmiş və təsdiqlənmişdir. İmzalanmış sənədlər sırasında Azərbaycan İnvestisiya Şirkəti ilə İtaliyanın CDP, SACE və SİMEST şirkətləri arasında Anlaşma Memorandumu da vardır. Sənədə əsasən, tərəflər ticarət və investisiya imkanlarının inkişaf etdirilməsində, Azərbaycan və İtaliya şirkətlərinin birgə iştirakı ilə investisiya təşəbbüslərinin dəstəklənməsində, habelə qarşılıqlı təlim proqramları və təcrübə mübadiləsinin təşkil olunmasında əməkdaşlıq edəcəklər. Səfər zamanı iqtisadi əməkdaşlığa toxunan Prezident İlham Əliyev İtaliya ilə qarşılıqlı ticarət mübadiləsinin artdığını, 2019-cu ildə 6 milyard dollar təşkil etdiyini bildirmişdi. Xatırladaq ki, İtaliya MDB ölkələrini çıxmaq şərti ilə Azərbaycanın xarici ticarət dövriyyəsinə ən çox paya malik 10 ölkədən biridir.

Ümumiyyətlə, hər iki tərəf mövcud yüksək münasibətlərin təkcə İtaliyanın Azərbaycanın ilk ticarət tərəfdaşı olması ilə məhdudlaşmadığını bildirir, iqtisadi və sənaye əlaqələrinin inkişafı üçün də böyük potensialın olduğunu vurğulayır. Müstəqillik illərində İtaliyanın Azərbaycan iqtisadiyyatına 770 milyon ABŞ dollarından çox, Azərbaycanın isə İtaliyaya 1,7 milyard ABŞ dolları həcmində sərmayə yatırması uğurlu investisiya əməkdaşlığının göstəricisidir. Ölkələrimiz arasında iqtisadi əlaqələr əsasən neft-qaz və enerji sektorunu əhatə etsə də, son illərdə qeyri-neft sektoru üzrə də ciddi əməkdaşlıq əlaqələri qurulmuşdur.

Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sektorlarda İtaliyanın 114 şirkəti fəaliyyət göstərir. İtaliya şirkətləri, həmçinin ölkəmizin neft-qaz sektorunda dəyəri 9,9 milyard ABŞ dolları olan 277 layihədə, qeyri-neft sektorunda isə dəyəri 708 milyon ABŞ dolları olan 37 layihədə podratçı kimi iştirak edirlər. Qeyd etmək yerinə düşər ki, İtaliyada istehlak olunan neftin 17 faizi Azərbaycandan idxal olunur. İki ölkə Avropanın ən böyük infrastruktur layihələrindən birinin-Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsində də sıx əməkdaşlıq edir. Bu layihənin son seqmenti – TAP qaz kəməri artıq fəaliyyət göstərir. TAP-ın işə salınması ölkəmizin Avropanın bir hissəsinin enerji təhlükəsizliyinin təmin edilməsinə verdiyi töhfədə yeni səhifə açmaqla yanaşı, Azərbaycan-İtaliya münasibətlərinin reallıqlara uyğun daha intensiv inkişaf etməsinə təkan verir.

İtaliya Aralıq dənizi ilə birlikdə Avropa, Afrika və Asiya arasında böyük bir körpü təşkil edir. Bu körpü Avropa ilə Asiya arasında tərəfdaşlıq üçün strateji əhəmiyyətə malikdir. İtaliya G8 və NATO üzvü, iqtisadiyyatın inkişafına görə Avropanın dördüncü yerdə olan ölkəsidir. Avropa Birliyinin təsisçisi üzvlərindən biridir.Azərbaycan da strateji baxımdan mühüm geosiyasi məkanda – Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan çox mühüm beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşir.

*(ardı 5-ci səhifədə)*



# İtaliya və Azərbaycan arasında siyasi, iqtisadi, mədəni əməkdaşlıq sürətlə genişlənir

*(əvvəli 1-ci səhifədə)*

Hər iki ölkənin əlverişli geosiyasi və coğrafi mövqeyə malik olması Xəzər dənizi və Aralıq dənizi regionlarında iqtisadi inkişafa öz müsbət təsirini göstərməklə yanaşı, strateji sabitliyin qorunmasında da çox mühüm amildir. Bundan başqa, BTQ-nin və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikilib istifadəyə verilməsi, bu məkanda azad iqtisadi zonanın yaradılması, Azərbaycanın bir tərəfdən Mərkəzi Asiyanı Qərblə, digər tərəfdən Cənubi Asiyanı Şimalla birləşdirən nəqliyyat qovşağının mərkəzinə çevrilməsi İtaliyanın daha çevik və qarşılıqlı hörmətə əsaslanan siyasət yürütməsinə imkan verir. Digər tərəfdən Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin möhkəmlənməsində İtaliya çox mühüm rol oynayır. Rəsmi Roma Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolunu yüksək qiymətləndirir. Azərbaycan da bu istiqamətdə mühim addımlar atır və İtaliya da etibarlı tərəfdaş kimi bunu dəyərləndirir, ikitərəfli münasibətlərin daha da dərinləşməsi üçün zəruri addımların atılmasını dəstəkləyir.

Bundan başqa, İtaliya Azərbaycanın ərazi bütövlüyünün tanınmasında, Qarabağ münaqişəsinin həlli istiqamətində həmişə ədalətli mövqe nümayiş etdirməsi ilə də fərqlənmişdi. İkinci Qarabağ müharibəsi zamanı, postmüharibə dövründə də İtaliya beynəlxalq hüquq prinsiplərindən çıxış edərək Azərbaycanı dəstəklədi. İtaliya 44 günlük müharibədə İtaliya Senatının və hökumətinin nümayəndələri Azərbaycana gəldilər, ermənilərin qadağan olunmuş raket sistemlərindən Gəncə və Bərdəni atəşə tutduqları terror hərəkətlərini öz gözləri ilə gördülər və bütün bunlar mətbuatda işıqlandırıldı. İtaliya ölkəmiz üçün çətin bir vaxtda Azərbaycanın yanında olmaqla əsl dost ölkə münasibətini nümayiş etdirdi. Əlbəttə, siyasi dialoqun davam etdirilməsi də iqtisadi əməkdaşlığın dərinləşməsinə müsbət təsir göstərir. Prezident İlham Əliyev ötən ilin dekabrın 9-da İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edən zaman bildirmişdi ki, Azərbaycan İtaliya ilə əməkdaşlığını dərinləşdirmək arzusundadır. “Biz ölkələrimiz arasında gözəl siyasi münasibətlərimizdən faydalanaraq, iqtisadi əməkdaşlıq və daha çox İtaliya şirkətinin Azərbaycanda fəaliyyətə cəlb edilməsi məsələlərini nəzərdən keçirmək niyyətindəyik. Buraya ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, Azərbaycanın dağıdılmış şəhərlərinin bərpasına dair böyük planlarımız da daxildir”, – deyən ölkə başçısı əlavə etmişdi ki, Azərbaycanın yeni infrastrukturun yaradılmasına – yeni yolların, dəmir yolu xətlərinin, hava limanlarının, məktəb və xəstəxanaların inşasına ehtiyacı var. Bunun səbəbinin ermənilər tərəfindən hər şeyin dağıdılması, yerlə-yeksan edilməsi olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev vurğulamışdı ki, italyan şirkətləri ilə də müqavilələrin imzalanacağına ümidvardır: “Bu da təbiidir. Çünki İtaliya Azərbaycanın yaxın dostudur. Ölkələrimiz arasında çoxillik diplomatik münasibətlərin mövcudluğu dövründə və xüsusilə də müharibə zamanı biz sizin mövqeyinizin şahidi olduq. Ölkənizin parlament nümayəndələrinin müharibənin başa çatmasından bir aydan az vaxt keçməmiş Azərbaycana səfəri bizim güclü dostluq münasibətlərimizi nümayiş etdirir. Biz bu həmrəylik və dəstək jestini yüksək qiymətləndiririk”.

Artıq ilkin müqaviləyə imza atılmışdır. Belə ki, ötən ilin dekabr ayında İtaliya ilə Azərbaycan arasında Qarabağın enerji infrastrukturunun yaradılması çərçivəsində əməkdaşlığa dair müqavilə imzalanmışdı. Həmin müqaviləyə əsasən, İtaliyanın “Ansaldo Energia” şirkəti Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa ediləcək hər biri 110 kilovoltluq dörd yarımstansiyanı avadanlıqla təmin edəcək. Qeyd edək ki, 30 ilə yaxın erməni işğalçılarının işğalı altında saxladığı Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələrində elektrik stansiyaları, yarımstansiyalar və elektrik xətləri daxil olmaqla bütün infrastruktur məhv edildi. İndi italyanlar azad edilmiş ərazilərdə enerji infrastrukturunun yaradılmasına öz töhfələrini verəcəklər. Türkiyə şirkətlərindən sonra Azərbaycanın işğaldan azad olunan ərazilərində reallaşdırılacaq layihələrə İtaliyanın da qoşulmasını bərpa prosesinə digər dost ölkələrin də cəlb olunması baxımından müsbət faktor kimi qiymətləndirmək olar. Prezident İlham Əliyev bəyan etdiyi kimi, bu prosesə bizi dəstəkləyən və dost olan ölkələrin şirkətləri dəvət edilmiş, Türkiyə şirkətləri birinci qatıldı, Azərbaycanla müqaviləni imzalayan ikinci ölkə isə İtaliya oldu.

Bir sözlə, Azərbaycan ilə İtaliya arasında aparılan dinamik siyasi və iqtisadi əməkdaşlıq uğurla davam edir. Tərəflər arasında qarşılıqlı-faydalı əməkdaşlığın mövcudluğu, eyni zamanda, bir çox sahələrdə intensiv əlaqələrin inkişafı Azərbaycan–İtaliya münasibətlərinin xarakterinə müsbət təsir göstərir.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 2 may.- S.1;5.